2008-ci ilin martından etibarən “British Council” təşkilatı Təhsil Nazirliyi ilə birgə “Təbiət fənləri üzrə müəllimlər üçün təlimlər” adlı yeni layihəni həyata keçirməyə başlayıb.

Layihənin əsas məqsədi təbiət fənlərini tədris edən müəllimlərin interaktiv tədris metodlarından istifadə üzrə bacarıqlarının, peşəkar qabiliyyətlərinin inkişaf etdirilməsi və müvafiq təlim vasitələrinin hazırlanmasından ibarətdir. Layihənin 3 mərhələdə aparılması, eyni zamanda I mərhələ üzrə təlimlərin keçirilməsi məqsədilə müəyyənləşdirilmiş şərtlər əsasında təlimçilərin seçilməsi nəzərdə tutulub .

Layihə Azərbaycan Müəllimlər İnstitutu və onun 11 filalı, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji, Gəncə, Sumqayıt, Lənkəran Dövlət Universitetləri, eləcə də Bakı, Gəncə, Sumqayıt şəhər, Lənkəran və Salyan rayonlarının müəyyənləşdirilmiş 3 ümumtəhsil məktəbində təbiət fənlərini tədris edən müəllim, metodist, universitet və məktəb rəhbərlərini əhatə edib. x